# ARİF ƏZİZ - SƏNƏTİ İLƏ ÖLKƏLƏRƏ KÖRPÜ SALAN RƏSSAM

**Dürdanə Qurbanova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistri, sənətşünas
**E-mail:** qurbanzade_d89@mail.ru







Azərbaycanın tanınmış fırça ustası, Xalq rəssamı Arif Əzizin yaradıcılığı ilə onun 75 illik yubileyinə həsr olunmuş, Muzey Mərkəzində keçirilən "Maestro and Artists" adlı sərgisi zamanı yaxından tanış oldum. Maraq doğuran səbəbləri özüm üçün aydınlaşdırdım və suallarım meydana gəldi. Mən bu suallarıma cavab tapdıqca Arif müəllimin çoxsaylı insan kütləsi tərəfindən sevilməsinin səbəbini öyrəndim. Onunla həmsöhbət olduqda isə xoş ünsiyyətindən, geniş dünyagörüşü sayəsində verdiyi dolğun və maraqlı məlumatlarından son dərəcə məmnun qaldım. İncə qəlbli rəssamın nəzər yetirdiyim tabloları bir-bir gözümün önündə canlandı, əsərlərinin rəng qamması, mövzularındakı sentimentallığın təsadüfi olmadığı bir daha aydınlaşdı.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, professor, Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü və bu qurumun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Arif Əziz 60 ilə yaxın yaradıcılıq fəaliyyəti ərzində Azərbaycan təsviri sənətinin inkişafına göstərdiyi xidmətlərə, mədəniyyətimizi xarici ölkələrdə ləyaqətlə təmsil etdiyinə görə dəfələrlə diplom, orden və fəxri adlarla təltif olunmuşdur. Elə bu zəhmətin nəticəsidir ki, nəinki Azərbaycanda o cümlədən, dünyanın bir çox ölkələrində tanınır və sevilir. Yaradıcılığı daim diqqət mərkəzində olmaqla, sənətşünasların tədqiqat obyektinə çevrilmişdir.

Arif Əziz Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini bitirdikdən sonra 1966-1971-ci illərdə S.Q.Stroqanov adına Moskva Dövlət Ali-Bədii Sənaye Rəssamlıq İnstitutunda "Sənaye qrafikası, qrafik dizayn" ixtisası üzrə təhsil alıb. 1971-ci ildə Poloniya Universitetində "Qrafik dizayn" üzrə təkmilləşmə kursu keçib. Elə həmin ildə vətənə qayıdaraq M.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətə dəvət olunur. Öz üzərində daim işləyən, sənətdə kamilləşməyə doğru gedən rəssam 1973-1975-ci illərdə SSRİ xalq rəssamları Mikayıl Abdullayev və Yevgeni Kibrikin yaradıcılıq emalatxanasında təhsilini davam etdirib.

O, həmçinin Azərbaycan Dizaynerlər İttifaqı, Beynəlxalq Reklam Assosiasiyasının üzvü və UNESCO-nun sülhməramlı səfiridir.

1971-ci ildən etibarən rəssamın bədii yaradıcılıq istiqaməti ilə pedaqoji fəaliyyəti bərabər olaraq, addım-addım irəliləməyə başlayır. Beləliklə o, Azərbaycanda ilk qrafik dizayner kimi tanınır, plakatlar, loqolar, ekslibrislər, afişalar, portretlər ilə yanaşı dəzgah rəngkarlığında da bir-birindən maraqlı əsərlər ərsəyə gətirir. Elə bu illərdən başlayaraq ayrı-ayrı ölkələrdə keçirilən sərgilərdə iştirak edir və onun fərdi sərgiləri təşkil olunur.

Hər bir rəssamın fırçasında ilk növbədə yaşadığı mühitin təsirindən təəssüratlar öz əksini tapır. Arif Əzizin Abşeronu, Bakı bağlarını, dəniz mənzərələrini canlandırdığı əsərlərində milli ruh ilə qovuşan yeni ideyalar özünəməxsus üslub xüsusiyyətləri əmələ gətirir. Bu üslub rəssamın dəsti-xəttidir. Həmin dəsti-xəttidir ki, keçmiş ilə gələcəyin, ənənə ilə yeniliyin sintezini tətbiq etməklə onun yaradıcılıq yolunu formalaşdırır. Arif Əziz yaradıcılığının başqa bir tərəfi bu əsərlərin insanın yaddaşına həkk olunmasıdır. Daha çox mücərrəd elementli, dekorativ xüsusiyyətli əsərləri ilə böyük ustalıqla tamaşaçının qəlbinə yol açır, onu düşündürür, əsərin hər tərəfində cizgilərin, xətlərin, fiqurların arasında gizlənən məqamların axtarışı, duyğuların düşüncəyə çevrilməsi ilə nəticələnir. Abstraksiya elə bu cəhətdən maraqlıdır ki, nəzəri cəlb edir, insan gördüyünün mənasını araşdırır. Bu, yaradıcılıq uğurudur və hər zaman sənətkarlıq baxımından yüksək qiymətləndirilir.

Getdikcə rəssamın yaradıcılığında abstrakt (mücərrəd) səpkili tablolar daha sıx-sıx görünməyə başlayır. Belə ki, o, əsərlərində təzadlı rəng qammasına müraciət edir, şərti fiqurlu, mücərrəd kompozisiyalı əsərlərin sayı artır. Plakatlarında yazılı ifadənin yerini təsvirli, obrazlı ifadə tutur və yüksək bədii ifadə gücünə malik nümunələr yaranır.

Arif Əzizin keçmiş sosialist ölkələrinin demək olar ki, hamısında, Finlandiya, Almaniya, Fransa, İtaliya, Madaqaskar, Türkiyə, İran kimi dövlətlərdə müxtəlif zamanlarda sərgiləri təşkil olunmuş, o, Azərbaycan təsviri sənətini, mədəniyyətimizi xarici ölkələrdə uğurla təmsil etmişdir.

Görkəmli sənətkar Baltikyanı ölkələrə, xüsusilə Vilnüs şəhərinə səfəri zamanı tarixi memarlıq abidələri, qırmızı kirəmitli evlər, daş döşəməli, səliqəli küçələr, insanlar, adət-ənənələr və əfsanələrdən təsirlənərək etüdlər edir, portretlər işləyir. O, Vilnüs silsiləsinə daxil olan "Annanın müqəddəs tonqalı", "Sevgililər", "Pribaltika" kimi ofortları, "Vilnüs" linoqravürü, natürmort və portretlərini 1968-ci ildə Polşada keçirilən sərgidə nümayiş etdirib.

1974-1975-ci illərdə tanınmış teatr rejissoru, SSRİ xalq artisti Andrey Qonçarov Moskvada Nikolay Erdmanın "İntiharçı" adlı tragikomediyasının tamaşasını hazırlayarkən öz ideyaları, müasirliyi ilə diqqətini çəkən Arif Əzizi də tragikomediyaya bədii tərtibat verməyə dəvət etmişdir. Gənc rəssam bu sahədə təcrübəsizliyinə baxmayaraq, tragikomediyaya tərtibat verir və tamaşa uğurlu alınır.

1976-cı ildə Arif Əziz Oleq İbrahimov və Arif Hüseynov ilə birlikdə Sibirə, Baykal–Amur Magistralının tikintisi ilə əlaqədar yaradıcılıq ezamiyyətinə göndərilir. Arif müəllim sovet dönəminin əsas "Hər şey vətən üçün, hər şey xalq üçün" şüarı altında çalışan insanların yüksək ideyalarını, niyyətlərini ifadə edən əsərlərə imza atır. Bu səpkidə onun "Tayqanı ram edirik", "Gələcək bizi zəfərlərə səsləyir", "Baykal-Amur Magistralı başa çatdırılacaqdır", "BAM - mərdlik məktəbidir" kimi romantik üslubda, müasir baxışda, obrazlı təfəkkürə əsaslanan plakatlar silsiləsi yaranır. Sənətkarın bu plakatları çağırış əhəmiyyətli idilər. Qısa və lakonik ifadə vasitələrinin köməyi ilə geniş fikir formalaşdıra bilməsi rəssamın güclü təfəkkürünün məhsuludur. Bu plakatlarda gələcəyə ümidlə baxan insanların ümumiləşdirilmiş obrazları öz əksini tapır. Arif Əzizin plakatlarının əsas xüsusiyyəti ondadır ki, nəinki informasiya daşıyıcı əhəmiyyətə malikdir, həmçinin maarifləndirici əhəmiyyət kəsb edərək müasir günümüzdə də öz təsir qüvvəsini itirməmişdir. Bütün belə zəhmətlər qarşılıqsız qalmamış, SSRİ Rəssamlar İttifaqı yenilikçi rəssamı Lenin komsomolu mükafatına layiq görmüşdür.

1983-1986-cı illərdə rəssam Afrikaya - Seneqala dəvət alır. "Bakı və bakılılar" adlı sərgidə onun əsərləri Seneqalın nümayəndə heyəti tərəfindən yüksək qiymətləndirilir. Bir-birindən maraqlı isti və əlvan rənglərə bürünmüş əsərləri yaradıcılığına yeni rəng qatır. Onun "Zənbilli oğlan", "Tələbə", "Gid" adlı tabloları bu səpkidəndir. Daha sonra onun nisbətən abstrakt lövhələri "Oyanış" adlı silsiləsinə daxil olur. "Savanna" və "Qayıqlar" əsərində isə Seneqal mənzərələrini dekorativ üslubda kətana köçürür. Rəssam Afrika incəsənəti ilə yaxından tanış olaraq, aldığı təəssüratlardan "Seneqallı qızlar", "Gülsatan qız", "Baobab" kimi maraqlı kompozisiyalı əsərlər yaradır. Seneqal mövzusu emosional ruhlu, güclü rəng qamması, effektli kompozisiyası ilə yaradıcılığında böyük rol oynamış, onu zənginləşdirmişdir.

Seneqalda olarkən portret janrına da müraciət edir. Bu baxımdan "Balıqçı", "Afrikalı gənc qadın", "Bunqalo qarşısında iki qadın" əsərlərində rəssam afrikalı insanın mənəvi aləminin böyük ustalıqla ifadəli təqdimatına çalışmışdır. "Portret" əsərində istedadlı qrafik üz cizgilərinin müxtəlif formalarına işıq-kölgə vasitəsi ilə nail ola bilmişdir.

Arif Əzizin xarici səfərləri ilbəil genişlənir, dünyanın dörd bir yanına ezamiyyətləri baş tutur. 1981-ci ildə öz sivilizasiyası ilə fərqlənən Hindistana yola düşür. Məkanın özünəməxsus mədəniyyəti, tarixi, adət-ənənələri ilə yaxından tanışlıq imkanı qazanır. Səfər zamanı Azərbaycan sənayesi çərçivəsində nailiyyətlərimizi özündə əks etdirən pavilyonun tərtibatını verir və bununla yanaşı, həm də fərdi sərgisini nümayiş etdirir. Bunun davamı olaraq Dehli, Bombey, Mədras, Aqra şəhərlərində və Şri-Lankada da sərgilər keçirilir. Əsərlərində Hindistana xas şux rənglər, adət-ənənələr, əhval-ruhiyyə duyulur. Sərgi ilə bağlı xatirələrində Arif Əziz qeyd edir ki, "bütün rənglərin bir-birinə uyğun gəldiyini məhz Hindistanda anladım". Burada da o yorulmadan yaradıcılığı zənginləşdirməyin yollarını axtarırdı.

90-cı illərdən etibarən rəssamın yaradıclığında əsaslı dəyişikliklər baş verir, Arif Əziz dünyada bəyaz əsərlər silsiləsi ilə öz sözünü deməyə başlayır, fəaliyyətinin "Bəyaz" dövrünə qədəm qoyur. Ağ rəngin hökm sürdüyü bu tablolar ölkəbəölkə gəzir, insanlar Azərbaycan təsviri sənətinin müasir tərəflərini yenilikçi rəssamın gözü ilə tanımağa başlayırlar. Rəssamın özünün də qeyd etdiyi kimi, hər bir musiqiçi 7 notu tanısa da, heç də hər bəstəkar bu notların köməyi ilə əsrarəngiz musiqilər bəstələyə bilmir. Rəssamlıqda da belədir: rənglər müxtəlifdir, düzgün, yerində istifadə edilməzsə, rəng yaxımından başqa bir şey olmayacaqdır. Arif Əzizin əsərlərində isə yüksək sənətkarlıq bacarığından irəli gələrək, ağ rəngin bolluğu bədii tərtibatın zövqünü oxşayır.

Arif Əziz mahiyyətdə - dünyanı dərkdə müasirliyə çağırır. 1996-2009-cu illərdə Türkiyədə "Bəyazlar" silsiləsi sərgilərindən sonra qardaş ölkənin kütləvi informasiya vasitələri müəllifi "Arif Bəyaz" adlandırmışlar. Həmin seriyadan olan tablolarında kainatın obrazını - plastik "başqa xassəli varoluşunu" yayındırıcı formalarda, ağ rəngin saf parıltılığında verərək işləyir. Bəyaz dövrə aid silsiləyə "Qədim mesajlar", "Kaleydoskop", "Şəkildə şəkil", "Kosmik xəritə", "Qalaktikanın göz qırpması", "Kosmik atəşfəşanlıq", "Kosmik aldanış", "Səma sırsırası" kimi əsərləri daxildir.

2013-cü ildə Parisdə rəssamın "Ulduz" Fransa–Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin və "CİFAL Groupe"un Azərbaycan nümayəndəliyinin dəstəyi ilə təşkil olunmuş 40-dək əsərinin toplandığı sərgisi baş tutdu. Fransanın məşhur dizaynerləri Jan Klod Jitrua, Kristof Gilarme, Tilman Qrav, məşhur maneken və aktrisa Sara Marşal, media nümayəndələrinin qatıldığı sərgidə Arif Əzizin üslubunu müasir rəngkarlıqda bir inqilab kimi dəyərləndirib, əsərlərini ənənəvi və abstrakt rəssamlığın vəhdətindən yaranmış təkrarsız yaradıcılıq inciləri adlandırdılar.

Rəsmlərdə mövcud olan ritm, harmoniya, rənglərin bir-biri ilə son dərəcədə uyumu sanki rənglərin rəqsinə bənzəyir. Bunu Fransa səfərinə həsr olunmuş "Mulen Ruj" silsiləsindən olan əsərlərində də hiss etmək mümkündür. Rəssamın Qərb insanının ruhunu, duyğularını və baxışını əks etdirdiyi bu tablolar mahiyyət etibarilə müasir günün incəsənətini təbliğ edir. Silsiləyə daxil olan əsərlərdə gözləri maska bəzəyi ilə örtülü qadın obrazlarını müxtəlif istiqamətlərdən axan rəngli xətlərin harmoniyası tamamlayır. Bu rəngarəng xətlər bir-birinə keçərək xaotik forma alır. Rəssam xətlərlə sirli baxışlı qadını sintez edərək əsərə daha da mistik abhava verir. Beləliklə, rəngkar bu silsilədən işlərində fiqurativ rəngli xətləri qəsdən müxtəlif istiqamətlərdən yağdıraraq tabloda dinamikaya və emosional durumun ortaya çıxmasına nail olur.

2015-ci ildə Almaniyanın paytaxtı Berlin şəhərində yerləşən "GallerySchulz" qalereyasında fırça ustasının "Rəngin ruhu" adlı fərdi sərgisi keçirildi. Sərgidə çıxış edən "GallerySchulz" qalereyasının sahibi Mixail Şults Arif Əziz yaradıcılığını Azərbaycan sovet incəsənəti ilə müasir Azərbaycan incəsənəti arasında əlaqələndirici kimi qiymətləndirmişdir: "Arif Əzizin yaradıcılığı hər zaman dəyişən və abstrakt olub. Sənəti ilə yaxından tanış olduqda, onun bədii yaradıcılığının inkişafını və düşüncə tərzini anlamaq mümkündür". Müəllif isə çıxışında bildirib ki, "Azərbaycan müstəqil dövlət olduqdan sonra rəssamların yaradıcılığına yeni nəfəs verildi. Sovet dövrünün əsas götürdüyü "Sosialist realizmi"nin mövcud qadağaları aradan götürüldü". Bütün bunlara baxmayaraq, müasirliyə meyllikdən yan ötmədi. O, əsərlərində təsviri sənətin yeni ifadə vasitələrini axtarır, Qərb incəsənəti elementləri ilə milli ənənələri unikal şəkildə birləşdirməyi bacarır.

Londona səfər 2018-ci ildə baş tutdu. Beynəlxalq səviyyədə tanınan rəssamın əsərlərinə bu dəfə ayrı rakursdan baxılır. Belə ki, tanınmış alman modelyer Leoni Merger 2017-ci ildə Berlin və London moda həftələrində nümayiş etdirilmiş və tənqidçilər tərəfindən bəyənilmiş "Qarabağ" kolleksiyasından sonra ərsəyə gətirdiyi ikinci layihəsində müasir yaradıcılıq tərzi ilə diqqət çəkən Arif Əzizin rəsm əsərlərini öz geyimlərində əks etdirmək qərarına gəldi. "Arif Əziz buraxılışı" kimi tanınan yeni kolleksiya başlanğıc nöqtəsini rəssamın "Bəyaz" dövründən götürmüşdür. Sənətkarın əsərlərində hökm sürən ağ rəngin mistikası, cizgilərin ritmik həlli, müasirlik və harmoniya modelyerə yeni kolleksiyasını işləyib hazırlayarkən ilham vermişdi.

2019-cu ilin mart ayında Arif Əzizin Türkiyədə növbəti fərdi sərgisi təşkil olunur. Bu dəfə İstanbulun Üsküdar Bələdiyyəsinin və TEAS Pressin təşkilatçılığı ilə "Nevmekan Sahil" sərgi salonunda "Bəyaz körpü" adlı fərdi sərgisi ilə o, sənətsevərləri sevindirdi. Sərgidə rəssamın müxtəlif illərdə yaratdığı 133 əsər nümayiş olundu. Bu zaman Üsküdar Bələdiyyəsinin başqanı Hilmi Türkmen Arif Əzizin Azərbaycan-Türkiyə mədəni münasibətlərinin inkişafındakı əhəmiyyətli rolunu qeyd edərək rəssama "Təşəkkürnamə" təqdim etdi. Onun 1970-ci illərdən başlayaraq bu günədək qrafika, rəngkarlıq, dizayn, teatr dekorasiyası sahələrində yaratdığı əsərlər tamaşaçılar tərəfindən böyük maraqla qarşılandı. Sərgi salonunun iki mərtəbəsini əhatə edən ekspozisiyanın konsepti Arif Əziz yaradıcılıq yolunun fərqli məqamlarını, onun bədii spesifikasını, rəssamın fərdi manerasını izləyicilərə açıqlamaq idi. Tədbir çərçivəsində 8 Mart Beynəlxalq Qadınlar günü ilə bağlı Üsküdarda keçirilən III "İz buraxan qadınlar zirvəsi" tədbirində Arif Əziz "Bəyaz" adlı əsərini Türkiyənin "Yaşılay" cəmiyyətinin və "İslam işbirliyi" təşkilatının prezidenti Esra Erdoğan Albayraka hədiyyə etmişdir.

Arif Əzizin yarım əsrdən çox yaradıcılıq fəaliyyətindən hələ çox danışmaq olar. Dəfələrlə ABŞ, Rusiya, Finlandiya, İran, Türkiyə, Seneqal, Almaniya, Fransa və digər ölkələrdə fərdi yaradıcılıq sərgiləri keçirilən rəssamın əsərləri Moskvada "Şərq muzeyi"ndə, Tehranda "Şəhriyar muzeyi"ndə, Ankarada "Dövlət muzeyi"ndə , Bakıda Milli İncəsənət Muzeyində, bir çox sənətsevərlərin şəxsi kolleksiyasında saxlanılır.

Gərgin əməyinin nəticəsi olaraq, rəssam 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Şöhrət" ordeni ilə təltif edilmiş və Azərbaycanın Xalq rəssamı fəxri adına layiq görülmüşdür. Arif Əziz sərgiləri, nailiyyətləri və müasir fərqli manerası ilə Azərbaycan təsviri incəsənətinə yeni töhfələrini verməyə davam edir, onu dünyada tanıdır və öz sözünü rəsmin dili ilə sənətsevərlərə çatdırır... ◆


**Ədəbiyyat:**

1. İbrahimov Telman. "Arif Əziz - ömür yolu və yaradıcılığı" Bakı, 2008
2. Məmmədova Ayan. "Bəyaz dövr - Arif Əzizin özünəməxsus təsviri sənəti", 2018
3. «Maestro and Artists» kataloq. Bakı, 2019, 196 səh
4. Ибрагимов Тельман. «Азербайджанский плакат» Ташкент, 1992
5. Современный эксилбрис Азербайджана. Каталог, Баку, 1988
6. Ахундзадде Лейла. «Сенегал глазами бакинского художника Арифа Азизова», каталог, Баку



**Резюме**

Дурдана Гурбанова

АРИФ АЗИЗ, ХУДОЖНИК, КОТОРЫЙ СОЕДИНЯЕТ СТРАНЫ СВОИМ ИСКУССТВОМ

Эта статья посвящена творчеству азербайджанского народного художника Арифа Азиза. Она включает в себя его образовании по специальности «Промышленная графика, графический дизайн», педагогическую деятельность в Азербайджанском Государственном Университете Культуры и Искусства, признание, как первого графического дизайнера в Азербайджане и персональные выставки в зарубежных странах. Рассматриваются особенности в начальном этапе творчества художника в советском периоде, творческие поездки в связи со строительством Байкало-Амурской магистрали, выставки в Африке, Индии, а также по всему миру. Предоставляется информация об основных изменениях в творчестве художника с 90-х годов и особенностях его работ «белого периода». Художник неоднократно проводил персональные выставки в США, России, Финляндии, Иране, Турции, Сенегале, Германии, Франции и других странах и достойно представлял изобразительное искусство Азербайджана.



**Ключевые слова:** народный художник, промышленная графика, абстрактный стиль, офорт, линогравюра, экслибрис, выставка, современная живопись



**Summary**

Durdana Gurbanova

ARIF AZIZ, AN ARTIST WHO CONNECTS COUNTRIES WITH HIS ART

This article deals with the creativity of Azerbaijani folk artist Arif Aziz. His education in Industrial Graphics, Graphic Design, Pedagogical Activity at Azerbaijan State University of Culture and Art, recognition as the first graphic designer in Azerbaijan and his personal exhibitions abroad. The peculiarities of the early stage of the artist's creation and the creative journey associated with the construction of the Baikal Amur Highway are being reviewed by exhibitions in Africa, India, and around the world. It provides information on major changes in the artist's creativity since the '90s and on the features of his work in the "White period". The artist has repeatedly held individual art exhibitions in the United States, Russia, Finland, Iran, Turkey, Senegal, Germany, France, and other countries, and properly represented Azerbaijan.



**Keywords:** Folk artist, industrial graphics, abstract art, etching, bookplate, exhibition, modern painting